RESPUBLİKA DÖVLƏT KƏND TƏSƏRRÜFATI MUZEYİ

**Redaksiya heyəti:**

**Natiq Qurbanov**
**Nadir Məmmədli**
*Filologiya elmləri doktoru, professor*
**Xanhüseyn Kazımlı**
*İqtisad elmləri doktoru, professor*
**Misir Mərdanov**
*Akademik*
**Vidadi Xəlilov**
*Akademik*
**Fərəc Fərəcov**
*Naxçıvan MM-nın deputatı*
**Mikayıl Məhərrəmov**
*Texnika üzrə elmlər doktoru, professor*
**Tahir İbrahimov**
*Coğrafiya üzrə fəlsəfə doktoru*




**Yadigar Bagırova**
***Təsisçi və baş redaktor***
***ICOM-un üzvü***

# *Təsisçi və baş redaktordan*



**Rəyçi: Sona İmanova**
**Təranə Musayeva**

Çapa imzalanmış 01.07. 2026
Şərti çap vərəqi 7,5 Sifariş № 45
Kağız formatı 60x84 1/8. Tiraj 100.

Dizaynerlər: **Şamil Qurbanov**
**Zahid Məmmədov**

Kompüter operatoru: **Almaz Qurbanova**
Müxbir: **Sima Abdullayeva**

Müəlliflə əlaqə: 055 426 72 27
051 934 72 27

Emai: yadigar.bagirova.83@mail.ru

## ƏZİZ DOSTLAR, HƏMVƏTƏNLƏR!

*"Nəsildən-nəslə" elmi-publisistik jurnalının bu sayında Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının təşəbbüsü ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində keçirilən "Ulu Öndər Heydər Əliyevin fəlsəfəsi işığında: Memarlıq, Ekologiya və Tarixin harmoniyası" mövzusunda Yay məktəbinin fəaliyyəti təqdim olunur. Jurnalda Yay məktəbi iştirakçılarının Azərbaycanın çoxəsrlik aqrar irsinin, milli-mənəvi dəyərlərinin etibarlı qoruyucusu, bu irsin gələcək nəsillərə çatdırılması istiqamətində mühüm elmi-maarifləndirici missiya həyata keçirən Respublika Dövlət Kənd Təsərrüfatı Muzeyinin qonağı olmaları, muzeyin zəngin ekspozisiyası ilə yaxından tanışlıqları, eləcə də ölkənin digər muzey və qoruqlarına təşkil olunan elmi-maarifləndirici səfərlər fonunda memarlıq irsinin, ekoloji dəyərlərin və tarixi-mədəni irsin qorunmasının əhəmiyyəti işıqlandırılır.*

**Kənd Təsərrüfatı Muzeyinin dəstəyi ilə çap olunmuşdur.**





# Tarixi irsin keşiyində

22-25 iyun 2026-cı il tarixlərində Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı tərəfindən "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Ulu Öndər Heydər Əliyevin fəlsəfəsi işığında: Memarlıq, Ekologiya və Tarixin harmoniyası" mövzusunda Yay məktəbi keçirilmişdir.

Tədbirlə bağlı YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bildirdi ki, "Yay məktəbi" milli yaddaşımızın, memarlıq irsimizin və dövlətçilik ənənələrimizin gənc nəslə aşılanması baxımından olduqca mühüm platformadır. O, Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə sovet dövründə həyata keçirilən şəhərsalma proqramlarının Azərbaycanın sənaye və sosial infrastrukturu üçün əsas yaratdığını, müstəqillik dövründə isə yeni iqti-

sadi və siyasi reallıqlara uyğun şəhər inkişaf modelinin formalaşdığını qeyd edib. Vurğulanıb ki, bu siyasi və mənəvi xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən bərpa və yenidənqurma layihələri müasir şəhərsalma modelinin mühüm nümunəsinə çevrilib. Memarlıq abidələrini xalqımızın qədimliyinin sübutu və tariximizin daşlaşmış yaddaşı, memarlıq sənətini isə Azərbaycan xalqının mədəniyyətini, zövqünü, mənəviyyatını özündə əks etdirən çox qiymətli bir sahə hesab edən Ümummilli Lider Heydər Əliyevin memarlıq irsi müasir Azərbaycanın simasını müəyyənləşdirən böyük bir quruculuq məktəbidir. V.İsmayılov qeyd etdi ki, milli memarlığa Ulu Öndərin fenomenal qayğı ənənəsi bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Xüsusilə erməni işğalı nəticəsində dağıdılan şəhər və kəndlərimizin yenidən qurulması, tarixi-memarlıq irsimizin bərpası geniş vüsət alıb. Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması çağdaş tələblər səviyyəsində, yeni texnologiyaların, şəhərsalma standartlarının və memarlıq formalarının tətbiqi ilə gerçəkləşir. Abidələrin ilkin siması özünə qaytarılır, məhz dünənlə bu günün arxitektura vəhdətində XXI əsrin yeni Azərbaycan kənd və şəhərlərinin obrazı yaradılır. Qürur doğuran bu milli təəssübkeşliyin kökündə isə Ulu Öndərin milli-mənəvi dəyərlərimizə, maddi mədəniyyətimizə böyük məhəbbəti dayanır. O, çıxışında qeyd etdi ki, Azərbaycanın şəhər-







salma və memarlığının inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Yay məktəbi çərçivəsində rayon təşkilatının əməkdaşları və gəncləri Respublika Kənd Təsərrüfatı, Tullantıdan sənətə və Azərbaycan Tarixi muzeyini ziyarət ediblər. Onlara muzeyin tarixi və fəaliyyəti barədə ətraflı məlumat verilib. Tədbirin sonunda yay məktəbində ziyarət olunan muzeylərin nümayəndələri təşəkkürnamə ilə təltif ediliblər. Yay məktəbində iştirak edən gənclərə sertifikatlar təqdim edilib.






YENİ AZƏRBAYCAN PARTİYASI

**"Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır."**

***Ulu Öndər***
***Heydər Əliyev***



# Milli dəyərlər xəzinəsi

Maddi, milli dəyərlər tarix boyu millətin həyat səviyyəsini yüksəlməsinə xidmət edirsə, mənəvi milli dəyərlər millətin mənəviyyatının formalaşmasına, zənginləşməsinə kömək edir.Muzeylər keçmişimizi bugünə daşıyan, qoruyan, öyrənən və nümayiş etdirən maddi-mənəvi dəyərlər xəzinəsidir. Muzeylər eyni zamanda elm, maarif müəssisəsi olmaqla qədim keçmişimizlə bugünümüz arasında körpü rolu oynayır.

Elm və mədəniyyətin, ədəbiyyat və incəsənətin, estetik tərbiyə və pedaqoji fəaliyyətin ən önəmli çalarlarını özündə ehtiva edən muzeylər, ümumbəşər və milli-mənəvi sərvətləri qoruyub saxlamaq, yaşatmaq və gələcək nəsillərə ötürməkdə və habelə müasir dövrdə yaradılmış gözəl sənət nümunələrini toplayıb nümayiş etdirməkdə əvəzsiz mədəniyyətdir. Muzey işi çox sahəli və çoxçalarlı bir fəaliyyətdir. Muzey işi yüksək peşəkarlıq, dəqiqlik, elmilik tələb edən bir sahədir. Muzey işinin bütün sahələri bir-biri ilə sıx surətdə əlaqədardır. İstər fond işi, mühafizə işi, bərpa işi, istərsə də ekspozisiya işi, həm də elmi-maarif, pedaqoji fəaliyyət, estetik tərbiyə işi ilə əlaqədardır.





Təlim-tərbiyə ocaqlarından biri kimi Respublika Dövlət Kənd təsərrüfatı muzeyi belə vacib işdən heç vaxt kənarda qalmır, məktəblilərlə tez-tez görüşlər keçirir, ekskuriyalar təşkil edir, müxtəlif mövzularda birgə tədbirlər hazırlayırlar.

Muzeyin çox vacib və gələcək nəslin təlim-tərbiyəsində böyük xidmətləri olan iş sahələrindən biri də ekskursiya işidir. Muzey ekpozisiyası - muzey tərəfindən işlənmiş elmi konsepsiya və müasir bədii-memarlıq həlli prinsiplərinə uyğun olaraq təşkil olunmuş və yerləşdirilmiş muzey əşyalarının nümayişi vasitəsilə tədris və tərbiyə vəzifələrini həyata keçirən muzey kommunikasiyasının əsas formasıdır. Muzey ekspozisiyası haqqında verilən bu tərifdən aydın olur ki, ekspozisiya muzey ilə kütlə arasında əlaqə yaradan əsas kommunikativ vasitə olub, əhalinin müxtəlif təbəqələri ilə canlı ünsiyyətin vacib obyektidir. Sadə dillə desək, ekspozisiya muzey əşyaları vasitəsilə nümayiş etdirmənin spesifik xüsusiyyətləri, özünəməxsus cəhətləri var. Tarixi həqiqətlərin olduğu kimi açıq-aşkar formada kütlələrə çatdırılması üçün sərbəst şəraitin yarandığı vaxtda ekspozisiyaların daha dərin, ideya cəhətdən əsaslandırılmış və formaca daha baxımlı olması çox vacibdir. Məhz bu səbəbdən də ekspozisiyanın digər xüsusiyyətləri-elmi konsepsiya əsaslanması haqqında danışmaq lazımdır. Muzey ekspozisiyası anlayışı-təkcə müxtəlif əşyaların bir mövzuda yığnağı və baxılmaq üçün nümayiş etdirilməsi deyil, əsl muzey materialları əsasında vahid, əvvəlcədən düşünülmüş elmi ideyaya uyğun yaradılan bitkin və əhatəli tematik elmi tərkibdir. Muzey kollektivi tərəfindən hazırlanmış ekspozisiyanın elmi konsepsiyası ekspozisiyanın ideya məzmununu, muzey toplusundan əşyalara seçilməsi, qruplaşdırılması prinsiplərini müəyyən edir, həmçinin bədii həll üçün zərurui olan tələbləri elmi cəhətdən əsaslandırır. Ekspozisiyanın elmi konsepsiyasının təzahürü özünü, hər şeydən əvvəl nümayiş edilən muzey əşyalarında göstərir. Ekspozisiya şəraitində hər bir muzey əşyası konkret bir mövzunun elmi cəhətdən şərhinə xidmət edir. Real varlıqdan götürülmüş və muzey toplusuna daxil edilmiş muzey əhəmiyyətli bu əşyalar sosial, yaxud elmi-təbii informasiyanın daşıyıcısı kimi milli mədəniyyətin tərkib hissəsidir. Muzeylərin ekspozisiyasında adətən müəyyən müddətdən



sonra reekspozisiya işləri aparılır. Məlumdur ki, fondda olan bütün materialları eyni zamanda ekspozisiyada nümayiş etdirmək mümkün deyil. Adətən, ekspozisiya zallarının azlığı buna imkan vermir. Fondun zənginliyi və ekspozisiya zallarının azlığı muzeylərdə nəzərə alınmalıdır. Tarixin müəyyən mərhələlərini əks etdirən eksponatlar xronologiyaya uyğun nümayiş etdirilməldir. Təbiidir ki, ekspozisiyada reekspozisya işləri aparılarkən mütləq ekskurisya mətni üzərində də işləmək lazımdır. Belə ki, mətnin əsası saxlanılmaqla müəyyən əlavələr və çıxarışlar edilməldir.

Muzeyin spesifik vəzifələrindən biri də adamlarda muzey mədəniyyətinin tərbiyə olunmasıdır. Muzeylər tarix və mədəniyyət abidələrinə, onları yaradan insanın əməyinə qarşı hörmət hissələrini oyatmağa, bu abidələrin ictimai əhəmiyyətinin, estetik dəyərinin, onların gələcək nəsillər üçün qorunub saxlanmasının labüdlüyünü açıqlamağa çalışır. Muzey mədəniyyətinə yiyələnmək muzey formaları vasitəsilə təmin olunan ünsiyyət prossesidir. Muzeylərin kütləvi mədəni-maarif fəaliyyəti tərbiyə və maarif vəzifələrinin, mədəni asudə vaxtın təşkilinin yerinə yetirilməsi işinə xidmət edir.

Muzey mühiti müvafiq əşyalara və güclü elmi-yaradıcı potensiala malik, kollektiv tərkibinə malik olmaqla məqsədyönlü vəzifələri həyata keçirir. Muzey mühitinin hərəkətverici, istiqamətləndirici qüvvəsi-muzey işçiləri, canlandırıcı qüvvə olan tamaşaçılar, mənbə -əşyalar, eksponatlar, elmi-kütləvi fəaliyyətin əsası ilə elmi və yaradıcı idrak sayılır.

Respublika Dövlət Kənd Təsərrüfatı Muzeyi müxtəlif görüşlərin, tədbirlərin mərkəzinə çevrilmişdir. Muzeyin tərtibatı elə gözəl və təbiidir ki, burada həm böyüklər, həm də məktəbyaşlı yeniyetmələr gördükləri mənzərələrdən dincəlir və böyük mənəvi zövq alırlar. Buna görə də məktəblilər muzeyə tez-tez gəlir, burada olan yeniliklərlə yaxından tanış olurlar.

Muzey mühitinin təsir gücündən bəhs edilərkən məktəblilərlə aparılan tərbiyə prosessinin müvafiq şəraitdə məqsədyönlü təşkili diqqət mərkəzində olmalıdır. Mühit vasitəsilə yaradıcı idrakla tərbiyə prossesi arasındakı qarşılıqlı əlaqə muzey mövcudluğundan sonrakı icitmai inkişafın bütün mərhələlərində özünü qabarıq şəkildə göstərir. Bu cür təsir cəmiyyətin sonrakı inkişaf mərhələlərinə də müəyyən dərəcədə nüfuz edir, bu prossesin sürətlənməsində mühüm amilə çevrilirlər.

Muzey işinin tərkib hissəsi sayılan elmi-maarif fəaliyyəti mahiyyət etibarı ilə həmişə aktuallıq kəsb etmiş, bu gün də aktualdır. Muzey işinin bütün vasitə və formalarından istifadə edilməklə bu proses həyata keçirilir. Müxtəlif yaş qrupuna mənsub muzey tamaşaçısı ilə elmi-maarif istiqamətli fəaliyyət prossesində birtərəfli tərbiyə prosesi, formalaşma, elmin ayrı-ayrı sahələrinə yiyələnmə, ümumtəhsil orta məktəblərində bədii-silsilə fənlərinin mənimsənilməsi, qavranılmasına xüsusi diqqət yetirilir. Tərbiyə işinə kompleks munasibət bəslənilməsi də muzeyin elmi-maarif fəaliyyətinin tərkib hissəsidir.

Muzey işçiləri tərəfindən ətraf mühit öyrənilməli, nəmlik, hərarət, havada baş verən dəyişikliklər mütəmadi nəzər-diqqətdə olmalıdır. Mühitdə, hava şəraitinə uyğun olaraq texniki vəsaitdən istifadə işi planlaşdırılmalıdır.

Muzeylərdə istifadə olunan əsas işıq mənbələrinin əhəmiyyəti, bu mənbələrdən istifadə metodikasında istifadə edilməlidir. İşığın əmələ gətirdiyi pozuntular, dağıdıcılıq dərəcəsi və s. Kimi məqamların qarşını almaq üçün lazimi tədbirlər görülməlidir. Fərdi olaraq muzey materiallarının müvafiq işıq seli vasitəsilə işıqlandırılması metodikasından istifadə edilməlidir. Muzey fondlarında və ekspozisiyalarında saxlanılan eksponat və əşyaların işığın təsirindən qorunması üsullarına əməl olunmalıdır. Yeri gəlmişkən, ənənəvi mühafizə vasitələrindən istifadəyə də geniş yer verilməlidir. Bioloji təsirlərdən fond əşyalarının, eksponatların qorunması işi planlı şəkildə, ardıcıllıq gözlənilməklə həyata keçirilməldir.

Ekskurisya muzeylərdə aparılan mühüm elmi-tədqiqat işlərindən biridir. Eyni zamanda ekskursiyalar gənc nəslin dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.Ekskursiyalar öz əhəmiyyətinə, tərbiyəvi istiqamətinə, forma və metodların rəngarəngliyinə görə uşaqların tərbiyə işinə kompleks halında yanaşmaqda mühüm yer tutur.Yetişməkdə olan gənc nəslin formalaşmasında, onda bədii-estetik, humanist, əxlaqi və vətənpərvərlik hislərinin inkişaf etdirilməsində muzeylərin rolu əvəzedilməzdir.

Uşaqların mənəvi inkişafında muzeylər əhəmiyyətli rola malikdir. Muzeylər  xalqın milli xüsusiyyətlərini, tarixini təcəssüm etdirən, zəngin irisni qoruyan və onun təbliğində mühüm rolu olan mədəniyyət ocaqlarıdır. Bu baxımdan ölkəmizdə fəaliyyət göstərən müxtəlif profilli muzeylərin gələcək nəsillərin milli-mənəvi inkişafına , onların ənənələr əsasında tərbiyəsinə ciddi təsiri danılmazdır.

Həyatımızda uşaqların müşahidə etdikləri gündəlik hadisələr onlarda vətənə məhəbbət, düşmənə nifrət hissini gücləndirir. Qəhrəmanlara hüsn-rəğbəti artırır. Kiçik yaşlarında əməksevər, cəsur olmaq kimi yüksək əxlaqi keyfiyyətlər yaradır. Uşaqların maraq dairəsi geniş olduğundan gəzintlər, ekskurisyalar və tədbirlər onlarda ətraf mühit haqqında dolğun məlumat yaradır. Bu onlarda insanlara qayğılı münasibət, əməksevərlik, yaşlılara hörmət, yoldaşlıq və dostluq, vətənpərvərlik kimi yüksək hisslərin təşəkkülünə şərait yaradır.

Uşaqlar keçmişimizi, mədəniyyətimzii, adətlərimizi, milli dəyərlərimizi və s. ancaq kitablardan deyil, həm də ötən əsrlərin müxtəlif hadisələrindən xəbər verən eksponatlardan öyrənirlər. Muzeylərdə qorunan milli sərvətimiz onların dünya görünüşünün formalaşmasında da əhəmiyyətli təsirə malikdir.

Uşaqları müxtəlif tədbirlərə, sərgilərə, muzeylərə, bayram şənliklərinə aparmaqla onları bir şəxsiyyət kimi mənəvi cəhətdən formalaşmasına və hərtərəfli inkişafına kömək etmiş oluruq. Ədəbi mövzular, təsvirisənət, gözəl musiqi, teatr və muzeylərə ziyarətlər bədii zövqü gözəlləşdirir, ruha qida verir. İnkişaf etmiş müstəqil Azərbaycanda mənəvi zənginliyi, yüksək mənəviyyatı və fiziki kamilliyi özündə birləşdirən və şəxsiyyətin formalaşması üçün hər cür lazimi şərait yaradılmışdır. Belə ki, respublikannın müxtəlif muzeylərinə səyahət etmək olduqca maraqlıdır. Muzeylər əsasən tarix, incəsənət, təbiət, kənd təsərrüfatı, ədəbiyyat , texnika və s. tiplərə ayrılır. Bu muzeylər tarixi ənənələri özündə əks etdirən böyük həqiqət daşıyır. Keçmişinin yaddaşını özündə yaşadır, gənclərdə vətənə məhəbbət, gələcəyə inam hisslərin təbliğ edirlər.

Muzeydə keçirilən elmi-praktiki konfranslar , yazıçılarla görüş və söhbətlər ədəbi-bədii gecələr, hərbi-vətənpərvərliyə dair müharibə səhnələri, adət-ənənələr , bayramlar və s. tədbirlərə şagirdləri cəlb etdikdə onlar belə tədbirlərdən böyük mənəvi zövq alırlar, eyni zamanda həmin gün onların yaddaşlarına gözəl xatirə kimi həkk olunur.

Uşaqlıq illərinin təssuratları ilə zəngin olan insanın təxəyyülü, dünyaya baxışı, mühakimə dairəsi geniş olur. Uşaqlıq illərinin izi bütün ömürdən qırmızı xətt kimi keçir. İnsanın xarakteri bu ilkin zəmin üzərində formlaşır. Bu dövrdə uşaq həyatının parlaq, rəngarəng mənalı keçməsi, ona yeni hərtərəfli biliklərin verilməsi, onun dil qabiliyyətinin inkişaf etdirilməsi və söz ehtiyatının zənginləşdirilməsi çox vacibdir. İbtidai siniflərdə təlim-tərbiyə işi elə qurulmalıdır ki, hər bir dərs, hər bir gün keçirilən tədbirlər, şagirdlər üçün bayrama çevrilsin. Bu işdə məktəb ənənələrinin rolu olduqca böyükdür. Bu ənənələr içərisində bayramlar xüsusi əhəmiyyət kəsb edir. Nümunəvi proqram, ssenarilərinin çap edilib yayılması bayramların məzmunlu və təntənəli keçirilməsinə şərait yaradır.

Gənc nəslin tərbiyəli, mədəni, savadlı, vətənpərvər, tariximizə və adət-ənənələrimizə bağlı böyüməsi bütün cəmiyyətin işidir. Belə vacib məsələlərdə məsuliyyətini hiss edərək, işlə-

rini bu yönümdə qurmalıdırlar. Məhz buna görə də, yarandığı gündən maarifləndirmə və təbliğat işinə xüsusi fikir verən, muzey bu məqsədlə tez-tez sərgilər və mühazirələr təşkil edir. Onun fondu foto-neqativlərdən, məişət və etnoqrafiya nümunələrindən, rəsm əsərləri və tətbiqi incəsnət nümunələrindən və s. ibarətdir. Muzeyin ekpozisiyası daim yenilənir və respublikada kənd təsərrüfatının müasir vəziyyətini əks etdirən yeni materiallarla zənginləşir. Əslimizə soy kökümüzə qayıtdığımız və milli bəşəri dəyərlərdən bəhrələndiyimiz indiki dövrdə böyüməkdə olan nəslin mədəni-mənəvi , etik-əxlaqi və estetik tərbiyə sistemində layiqli yer tutmasına nail olmaq təxirəsalınmaz vəzifələrdən biri kimi muzeylərimizin qarşısında durur. Muzey əşyaları ilə estetik tərbiyədən məqsədyönlü şəkildə istifadə etmək harmonik cəhətdən dəyərli şəxsiyyət tərbiyələndirməkdir. Məhz belə şəxsiyyətdə tarixi-mədəni irsə dəyərli münasibət hissi formalaşır. Əsas vəzifə böyüməkdə olan nəsillər iş prossesində indikindən daha fəal, daha məqsədyönlü istifadə etməlidir.

Kənd Təsərrüfatı Nazirliyinin sifarişi əsasında Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyinin informasiya sistemi hazırlanmışdır. Ekspozisiya zalında "info-kiosk" quraşdırılmış və muzeyin informasiya sisteminin proqram təminatı yaradılmışdır. Bu interaktiv informasiya sistemi muzeyin veb portalı vasitəsi ilə geniş ölkə ictimaiyyətinə və xarici istifadəçilərə əlçatandır. Muzeyə ziyarət edən qonaqlar buradakı "info-kisok" vasitəsilə Azərbaycan kənd təsərrüfatı potensialı, onun tarixi və ayrı-ayrı sahələri ilə yaxından tanış olurlar. Muzeyin informasiya sistemi ən muasir dizayn interfeysinə malikdir, mütərəqqi texnoloji platformalarda hazırlanmışdır və 4 əsas moduldan ibarətdir: "Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı", "Respublika Dövlət Kənd Təsərrüfatı Muzeyi", "Kənd təsərrüfatı göstəriciləri", "Kənd təsərrüfatı sahələri". Hər bir modulda geniş, ətraflı məlumatlar toplanmışdır. "H.Əliyev və Azərbaycan kənd təsərrüfatı" modulunda ulu öndərin respublikanın kənd təsərrüfatına verdiyi tövhələr vizual olaraq fotoşəkillər, video çarxlar, onun kənd təsərrüfatı





ilə bağlı fikirləri vasitəsilə ziyarətçilərə təqdim olunur. Burada Heydər Əliyevin aqrar sahə üzrə fəaliyyəti və uğur tarixçəsi barədə vizual görüntülər verilmişdir. “Respublika Dövlət Kənd Təsərrüfatı Muzeyi” modulunda ziyarətçilər muzeyin xəritəsi təqdim olunur. Modulda hər eksponat haqqında həm vizual, həm də mətn məlumatlar vardır. “Kənd təsərrüfatı sahələri” modulunda aqrar sahənin müxtəlif istiqamətləri, ayrı-ayrı sahələrin inkişaf tarixi haqqında şəkil və mətn məlumatlar yerləşdirilmişdir. “Kənd təsərrüfatı göstəriciləri” modulunda isə kənd təsərrüfatına aid olan bütün sahələrin statistik göstəriciləri əks olunmuşdur.

Ekspozisiya zalında Qobustan qayalıqlarının maketi hazırlanmışdır. Qayalıqlarda insan, müxtəlif bitki və heyvan, yel dəyirmanı, əkinçi və kənd təsərrüfatı alətlərinin şəkli təsvir edilmişdir. Bu təsvirlər eramızdan əvvəl III-II minillikdə Qobustan ərazisində yaşamış insanların məişət və peşələrini, adət və ənənələrini özündə əks etdirir. Bütün qayaüstü rəsmlər Azərbaycanda əkinçilik mədəniyyətinin qədimiliyini sübut edən əyani dəlilərdir. Burada, həmçinin, əkinçilik və heyvandarlığa dair əmək alətləri: oraq, yaba, dırmıq, vəl, əl dəyirmanı, kotan, xış, boyunduruq, həmçinin, təsərrüfatda istifadə olunan ən qədim əmək alətləri nümayiş olunur.

Zalda XVIII-XIX əsrlərdə yaşamış kəndli ailəsinin sadə məişətini özündə əks etdirən daxma nümayiş edilir. Daxma interyeri Azərbaycan xalqının yaratdığı “əsl incəsənət” nümunəsi sayıla bilər.

Muzyedə taxılçılıq, pambıqçılıq, meyvəçilik, arıçılıq, çayçılıq, ipəkçilik, üzümçülük, atçılıq və digər müxtəlif kənd təsərrüfatı sahələrinə aid olan ekponatlar, fotoşəkillər və diaqramlar nümayiş olunmuşdur.

Pambıqçılıq bölməsində əmək qəhrəmanları: Bəsti Bağırova, Azərbaycanın ilk qadın mexanizatoru Sevil Qazıyevanın büstləri, eyni zamanda respublikada becərilən pambıq sortları, ölkəyə gətirilmiş ilk pambıqtəmizləyən maşınlardan biri və s. nümayiş olunur. Eləcə də, Ulu öndər Heydər Əliyevin pambıq sahələrində gördüyü fəaliyyətlərlə bağlı fotoşəkillər nümayiş olunmuşdur.

Zalda respublikanın dağətəyi zonasında yerləşən müasir Azərbaycan kəndi təbii şəkildə göstərilmişdir. Heyvandarlıq bölməsində qaramalın və qoyunçuluğun tarixi ilə bağlı məlumatlar verilmişdir.

İpəkçilik bölməsində isə bu qədim təsərrüfat sahəsinin tarixinə və inkişafına aid məlumatlarla tanış olmaq mümkündür. Bölmədə üzümdən hazırlanan müxtəlif məhsullar-şərab, sirkə, kişmiş, bəhməz və Azərbaycan şərablarının sərgilərdə aldığı diplom və medallar, çaxır çəlləkləri, üzüm sıxan press, qədim üzün sıxan daş və s. nümayiş olunur. Hələ XIX əsrin sonlarında nadir yerli sortlardan hazırlanan şərab növləri dünyanın ən yaxşı şərabları ilə rəqabət aparmış və London, Paris, Hamburq kimi şəhərlərdə keçirilən sərgilərdə aldığım diplom və qızıl medallara layiq görülmüşdür.

Azərbaycanda atçılığın vətənlərindən hesab olunur. Bunu həm arxeoloji qazıntılar zamanı əldə olunan maddi dəlillər, həm əlyazmalardakı məlumatlar, həm də qədim tarixçilərin fikirləri təsdiq edir. Ölkəmizdə tarixən Qarabağ, Qazax, Quba, Şirvan at cinsləri formalaşaraq inkişaf etmişdir. Burada fotoşəkillər, nalbəndliyə aid olan əşyalar, milli çapar geyimləri, həmçinin, Unesco-nun qeyri-maddi mədəni irs siyahısına salınan “çövkən” oyun aləti nümayiş olunur. 2018-ci ildə muzeyin köməyi ilə Ağdam Atçılıq Kompleksində Atçılıq Muzeyi açılmışdır. Zaldakı atçılıq bölməsində bu sahəyə aid geniş məlumat almaq mümkündür.

Təbiətin obrazı, insanın məişət və həyat tərzi xalq geyimlərində öz əksini tapmışdır. Geyim ənənələri müxtəlif olsa da, əsas xüsusiyyətləri eynidir-istifadə də rahatlıq, gözəllik və rəngarənglik. Mürəkkəbliyi və gözəlliyi ilə fərqlənən qadın geyimləri rəngarəngliyi ilə əlvan dağ çiçəklərini, yamacların yaşıllığını, qürub çağının al-qırmızı rənglərini xatırladır. Ekspozisi-

ya zalında həm də xalqımızın etnoqrafiyasını, məişətini əks etdirən eksponatlar-qədim və nadir bəzək əşyaları, XIX əsrdə və XX əsrin əvvəllərində kəndlilərin istifadə etdiyi toy-bayram, mərasim, iş geyimləri: misdən, gildən, taxtadan hazırlanmış qədim məişət əşyaları; qədim əkinçilik alətləri və s. nümayiş olunur.

Mədəni-maarif müəssisələrindən sayılan muzeylər ölkəmizin mədəni həyatında əhəmiyyətli rol oyanyır, təlim-tərbiyə istiqamətində geniş fəaliyyət göstərirlər. Cəmiyyət və təfəkkür haqqında elmi biliklərin yayılması, təbliği nöqtəyi nəzərindən muzeylərin misilsiz yeri danılmazdır. Buna görə də mədəni maarif işinin forma, vasitə, yolları və metodlarının muzeylərdə tətbiqi vacibdir. Dahi rəhbərimizin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələrlə yanaşı, muzey işi də öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Ulu öndərin təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin respublika müşavirəsi keçirilib, 1994-cü ildə isə bu müşavirənin materialları əsasında “Respublika muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında” qərar qəbul edilib. “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını və müvafiq münasibətləri tənzimləyir.








OYSHO












AZERÇAY






































































YENİ AZƏRBAYCAN PARTİYASI
BİNƏQƏDİ RAYON TƏŞKİLATI
"Şəhərsalma və Memarlıq İli" çərçivəsində
Ulu Öndər Heydər Əliyevin fəlsəfəsi işığında:
Memarlıq, Ekologiya və Tarixin harmoniyası
mövzusunda
YAY MƏKTƏBİ




SERTİFİKAT




TƏŞƏKKÜRNAMƏ


YENİ AZƏRBAYCAN PARTİYASI
BİNƏQƏDİ RAYON TƏŞKİLATI
rsalma və Memarlıq İli" çərçivəsində
Heydər Əliyevin fəlsəfəsi işığında
q, Ekologiya və Tarixin harmoniyas
mövzusunda
YAY MƏKTƏBİ
TƏŞƏKKÜRNAMƏ


TƏŞƏKKÜRNAMƏ


SERTİFİKAT



